*UOT 37.1*

***Aygün Rəhim qızı Qafarova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Xəzər Universiteti*
*https://orcid.org/0009-0004-1260-129X*
*E-mail: quliyevkamal 1@gmail.com*
https://doi.org/10.69682/arti.2025.92(1).11-13

# ÜZEYİR HACIBƏYLİ ŞƏXSİYYƏTİN MÜSTƏQİL AİLƏ HƏYATINA VƏ ÖVLAD TƏRBİYƏSİNƏ HAZIRLANMASI HAQQINDA

***Айгюн Рагим кызы Гафарова***
*докторант по программе доктора философии*
*Университет Хазар*

# УЗЕИР ГАДЖИБЕЙЛИ О ПОДГОТОВКЕ ЛИЧНОСТИ К САМОСТОЯТЕЛЬНОЙ СЕМЕЙНОЙ ЖИЗНИ И ВОСПИТАНИЮ ДЕТЕЙ

***Aygun Rahim Gafarova***
*doctorial student in the program of doctor philosophy*
*Khazar University*

# UZEYIR HACIBAYLY ON PREPARING PERSONALITY FOR INDEPENDENT FAMILY LIFE AND UPBRINGING CHILDREN

**Xülasə.** Məqalədə Üzeyir Hacıbəylinin şəxsiyyətin müstəqil ailə həyatına və övlad tərbiyəsinə hazırlanması ilə bağlı fikirlərindən söz açılır. Əsasən "O olmasın, bu olsun" musiqi komediyasından ailə problemləri ilə bağlı bəzi məqamların üzərində dayanılır. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.
***Açar sözlər***. *Üzeyir Hacıbəylinin komediyaları, şəxsiyyət, ailə həyatı, müstəqil ailə həyatı, övlad tərbiyəsi, ailə həyatına hazırlıq*

**Аннотация**. В статье рассматриваются идеи Узеира Гаджибейли о подготовке человека к самостоятельной семейной жизни и воспитанию детей. Основное внимание уделяется некоторым моментам, связанным с семейными проблемами, из музыкальной комедии «Если не то, так это». Статья будет полезна молодым исследователям.
***Ключевые слова***. *Комедии Узеира Гаджибейли, личность, семейная жизнь, независимая семейная жизнь, воспитание детей, подготовка к семейной жизни*

**Abstract.** The article discusses Uzeyir Hajibali's ideas on preparing a person for independent family life and raising children. The main focus is on some moments related to family problems from the musical comedy "If Not That, Then This". The article will be useful for young researchers.
***Key words***: *comedies of Uzeyir Hajibayli, personality, family life, independent family life, raising children, preparing for family life*

Şəxsiyyətin təşəkkül tapıb formalaşdırılmasında müxtəlif vasitələrdə istifadə olunur. Həmin vasitələr arasında təhsil və tərbiyəyə dair Azərbaycan dövlətinin və hökumətinin sərəncam, fərman və qərarları, dövlətin təhsil siyasəti, respublika Elm və Təhsil Nazirliyi kollegiyasının qərarları, Azərbaycan mütəfəkkirlərinin, yazıçı və şairlərin, bəstəkarların, pedaqoq və psixoloqların fikirləri önəmli rol oynayır.

Təhsil müəssisələrində şagirdlərin və tələbələrin müsbət mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi müxtəlif yollarla həyata keçirilir: 1) təlim prosesində ayrı-ayrı fənlər üzrə müvafiq mövzuların təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlarını nəzərə almaqla; 2)

ümumtəhsil məktəbində sinifdənxaric və ali təhsil müəssisələrində auditoriyadankənar tədbirlərin roluna dəyər verməklə.

Qeyd etdiyimiz kimi, təhsilalanların, o cümlədən tələbələrdə mənəvi keyfiyyətlərinin daha da təkmilləşdirilməsi, inkişaf etdirilməsi sahəsində bəstəkarların əsərlərinin imkanları da genişdir. Bu mənada bu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə anadan olmasının 140 illiyi qeyd olunacaq Üzeyir Hacıbəylinin musiqili komediyalarının, felyetonlarının, opera liberettolarının, satirik hekayələrinin və s. Təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlarından faydalanmaq son dərəcə yaxşı nəticələr verir.

Bu məqalədə dahi bəstəkarın şəxsiyyətin müstəqil ailə həyatına və övlad tərbiyəsinə hazırlanması ilə bağlı qənaətləri, fikirləri diqqət mərkəzinə gətiriləcəkdir.

İlk növbədə Üzeyir Hacıbəylinin öz həyat yoldaşı barədə. Üzeyir bəy 20 dekabr 1909-cu ildə Məleykə Həsənağa qızı Terequlova ilə ailə qurmuşdur. Məleykə xanım şanlı-şöhrətli Terequlovlar nəslindən idi. Terequlovlar müsəlman idilər. Onun digər bacısı ilə dahi bəstəkar Müslüm Maqomayev evlənmişdi. Üzeyir bəy və Müslüm bəy görkəmli bəstəkar olmaqla yanaşı, yaxın dost, bacanaq idilər.

Məleykə xamım Üzeyir bəydən iki yaş kiçik idi. Məleykə xanım təhsilini evdə almışdı, eyni zamanda Tiflisdəki Knyagina Olqa Fyodorovna adına Birinci Qadın Gimnaziyasında oxumuş, gimnaziyanın 4 sinfini başa vurmuşdu. Bakıda Şərqin ilk konservatoriyası yaradılanda həmin konservatoriyaya qəbul edilmişdi.

Məleykə xanım Hacıbəyli müəllim kimi fəaliyyət göstərirdi. Bəzi rus-tatar məktəblərində müsəlman qız uşaqlarına dərs deyirdi.

Məleykə xanım 1966-ci ildə Bakıda dünya-12nik dəyişmişdi.

Məleykə xanımı təsadüfi olaraq diqqət mərkəzinə gətirmədik. Üzeyir bəy və o, çox gözəl cütlük idilər. Uğurlu nikah, xoşbəxt ailə şəraitində yaşamış, necə deyərlər: bir0birinə can demişdilər. Bu ailədə normal, yüksək səviyyəli mənəvi və psixoloji atmosfer mövcud idi. Ailədə qarşılıqlı anlama hökm sürürdü.

Ona görə də Üzeyir bəy bütün azərbaycanlı ailələrin mehriban şəraitdə yaşamalarını, həyatdan zövq almalarını, uşaqların düzgün tərbiyə olunması qayğısına qalmasını məsləhət görürdü. O, qarşılıqlı güzəştə getməni ailə münasibətlərinin yaxşı olmasından ötrü mühüm vasitə kimi görürdü. Sevənlərin nikaha, ailəyə ciddi yanaşmalarını, baş qaldıran problemlərin tez bir zamanda birgə rəyə gəlməklə aradan qaldırılmasını vacib sayırdı. Öz əsərlərində eyni zamanda ailə münasibətlərində özünü göstərən zorakılıq hallarını, qadınların hüquqlarının tapdalanması, qadına yuxarıdan aşağıya baxılması, yetkinlik yaşına çatmamış qızların ərə verilməsini, bəzən də özündən çox yaşlı kişi ilə evləndirilməsini pisləyirdi. Musiqili komediyalarında qızların istəmədikləri şəxslərə ərə verilməsi tənqid olunur.

Diqqət edək:

"***Gülnaz***. Bu gün səni çox kefsiz görürəm, nə olub?

***Sərvər***. Atan səni bir özgəsinə ərə vermək istəyir.

***Gülnaz***. Bəs atam mənə heç zad deməyiblər.

***Sərvər***. Bu gün deyər və bir də sənə nə deyəcəkdir, sənin borcun onun sözünə qulaq asmaqdır.

***Gülnaz***. Yox, yox, mən səndən başqa özgəsinə ərə getməyəcəyəm, qoy məni öldürsün, mən səni sevirəm, sənə də gedəcəyəm

***Sərvər***. Axı o ər məndən dövlətlidir

***Gülnaz***. Cəhənnəmə olsun!

***Sərvər***. Məndən gözəldir.

***Gülnaz***. Çox mənə lazımdır!

***Sərvər***. Məndən cavandır.

***Gülnaz***. Lazım deyil.

***Sərvər***. Yalan deyirəm. O kişi, doğrudur məndən min kərrə dövlətlidir, amma özü qocadır, azından əlli yaşı vardır. Görsən qorxarsan.

***Gülnaz***. Mən daha səbir edə bilmirəm: günü bu gün atama deyəcəyəm ki, mən səni sevirəm və səndən başqasına ərə getməyəcəyəm" (2, s. 249).

Göründüyü kimi, "O olmasın, bu olsun" musiqili komediyasında uğurlu nikahın, xoşbəxt ailənin yaranmasına maneçilik törədəcək hallar özünü göstərir. "Ata qızının rəyini öyrənmədən, ona bir söz demədən, artıq onuncun nişanlı seçib. Özü də qızından yaşca ən azı iki dəfə böyük ər tapıb. Qızının xoşbəxtliyi barədə fikirləşmir. Məşədi İbad tacirdir, varlı-dövlət sahibidir. Gülnazın atası Rüstəm bəy borcun içindədir. Ona borc verənlər pullarını geri almaq üçün Rüstəm bəyi sıxışdırırlar. O, bir növ qızını Məşədi İbada satır. Onu Çimnazın gələcək həyatı,

xoşbəxtliyi deyil, borcunu vermək daha çox düşündürür. Diqqət yetirək:

***Məşədi İbad***. Axır sözünü de, qızı mənə verirsənmi? Yoxsa vermirsən, gedib ayrı qız alaram, deyərəm ki o olmasın, bu olsun.

***Rüstəm bəy***. Mən öz sözümün üstündə duran adamam. Ancaq sən də gərək qabaqca bir balaca tədarük görəsən.

***Məşədi İbad.*** Min manat sənə bəsdirmi?

***Rüstəm bəy.*** Min də üstə artır.

***Məşədi İbad.*** A kişi, axı bunun bir anbar da toy xərci var.

***Rüstəm bəy.*** Hərgah bur qədər cavan olsa idin, bu iş sənin üçün ucuz tamam olardı, amma heyf ki, qocasan, taxsır özündədir.

***Məşədi İbad.*** A kişi, mən nə qədər qoca olsam da, min buğu burma cavana dəyərəm. Ala, min beş yüz manat, qalanını da sonra verərəm" (2, s. 254-255).

Təsəvvür edək. Məşədi İbad Gülnazı heç görməyib. Rüstəm bəyə deyir:

***Məşədi İbad***. İndi mən istəyirəm ki, bir qızı görüm, danışdırım, nə deyimsən?

***Rüstəm bəy.*** Əyləş, bu saat qızı göndərərəm (*gedir*)

***Məşədi İbad***. Zarafat deyildir, bir ətək pul verirəm, bir baxım, görüm mal nə cür maldır, verdiyim pula dəyərmi? (2, s. 255).

Göründüyü kimi, Məşədi İbad evlənmək istədiyi xanıma, övladı yerində olan cavab qıza özünün ticarət obyektində alışı-verişi ilə məşğul olduğu ***mal, əşya kimi*** yanaşır.

Məşədi İbad Gülnazla və qulluqçu Sənəmlə görüşəndən sonra Rüstəm bəy içəri girərək soruşur:

***Rüstəm bəy.*** Necədir, qızı bəyəndin?

***Məşədi İbad.*** Qızı da bəyəndim, hələ desən qulluqçunu da!

***Rüstəm bəy.*** Bir beş-altı yüzdən keç, onu da sənə peşkəş eyləyim.

***Məşədi İbad.*** Yox, o hələ sonranın işidir (2, s. 258).

Bu dialoq həm Rüstəm bəyin, həm də Məşədi İbadın ailəyə, ailə münasibətlərinə necə yüngül yanaşıldığının göstərir. Rüstəm bəy beş-altı yüz manata Sənəmi də Məşədi İbada satmaq istəyir. Məşədi İbad xəsislik edir. Əslində Gülnazla birgə Sənəmi də özünə arvad etmək ürəyindən keçir. Təbii ki, bu minvalla qurulan ailə uzun ömürlü ola bilməz.

Məşədi İbad ömür-gün yoldaşına münasibəti də çox pisdir. Diqqət yetirək:

***Məşədi İbad.*** Qız nə qədər gözəl olsa da, bir o qədər mənə baha oturdu. Qız gəlsin, amma bu evdə oturmağa hövsələsi gəlməsin, çünki o cürə evdə böyümüş qız bir az kəmhövsələ olar (acıqlı). Ağzı nədir! Vallahi, bax bu gündən bir yekə qıfıl alacağam. Səhər durub dükana gedəndə qapını qıfıldayıb, açarını aparacağam ta axşam qaydana qədər, qoy qalsın evdə, evə öyrəşsin; pəncərələri də daldan taxta ilə vururacağam. Çox da oyan-bu yan eyləsə, döyəcəyəm, çünki arvad ki, döyülmədi, xarab olar; arvad ərindən nə qədər kötək yesə, bir o qədər ərin çox istəyər (2, s. 284).

Göründüyü kimi, Məşədi İbadın qənaətincə, "qadınlar nə qədər döyülsə, ərini bir o qədər çox sevər", "qadını qapalı yerdə saxlasan, bir otağa salıb qapını qıfıllayıb açarını götürsən, ərinə hörmət edər, onunla dilləşməz!"

Son dərəcə meşşancasına təsəvvürlərdir. Belə ailələrin, belə ər-arvadlığın ömrü qısa olar.

Bu əsər ötən əsrin əvvəllərində qələmə alın13nikas. O zamanlar ər-arvad münasibətləri, valideyn-övlad münasibətləri müasir günümüzlə müqayisədə fərqli idi. Lakin, təəssüf ki, hazırda da qızların erkən ərə verilməsi, valideynin təşəbbüsü ilə sevmədiyi ilə nikah bağlamağa məcbur edilməsi, mənafe güdərək evlənmə hallarına rast gəlinir. Ciddi səbəb olmadan ailədə ixtilafların baş alıb getməsi, boşanma hallarının art13nik müşahidə olunur.

**Problemin aktuallığı**. Dahi bəstəkarın 140 illik yubileyinə yaxşı töhfə olduğu üçün aktuallıq kəsb edir.

**Problemin yeniliyi**. Tələbələrin və şagirdlərin müstəqil ailə həyatına və övlad tərbiyəsinə hazırlanması probleminə həsr olunub.

**Problemin praktik əhəmiyyəti**. Doktorant və dissertantlarda, magistrant və magistrdə maraq doğuracaqdır.

**Ədəbiyyat:**


1. Səfərov, R. Pedaqoq, maarifçi, musiqişünas: Dahi bəstəkarın həyat yoldaşı Məleykə xanım Hacıbəyovanın bioqrafiyasından bəzi qeydlər. https://www.anl.az/down/meqale/azerbaycan /2020/mart/706334.htm Azərbaycan. – 2020. 7 mart. – s.4
2. Hacıbəyli, Ü. Seçilmiş əsərləri. 2 cilddə, 1-ci c. -Bakı: Şərq-Qərb, 2005. -408 s.


**Redaksiyaya daxil olub:** 03.02.2025